№ 35 (1030) 30 avqust - 5 sentyabr 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Bakı Kitab Mərkəzi gənc nəslin bilikli, savadlı və yüksək intellektual səviyyədə yetişməsinə xidmət edəcək




Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin açılışında iştirak ediblər.

Mərkəzin direktoru Günel Rzayeva burada yaradılan şərait barədə məlumat vermişdir. Fəaliyyətində əsas məqsədi mütaliəyə marağın artırılması olan Bakı Kitab Mərkəzində Azərbaycan və digər dillərdə dünya ədəbiyyatı bestsellerləri, incəsənətə dair nadir albomlar, turistlər üçün bələdçi kitablar, musiqi kitabları və notlar da satılacaq. Burada müxtəlif dillərdə və janrlarda 10 mindən çox adda kitab təqdim olunacaq. Mərkəzdə, ümumilikdə, oxucular Azərbaycan dili ilə yanaşı, rus, ingilis, alman, fransız, ispan və ərəb dillərində nəşrlər də əldə edə bilərlər. Mərkəzin layihəsi üzərində işləyənlərkən kitabsevərlərin müxtəlif nəşrlər əldə etməsi ilə yanaşı, burada asudə vaxtlarını xoş keçirmələri üçün hər bir məqama xüsusi diqqət yetirilib.

Kitab Mərkəzinin qonaqları burada müxtəlif nəşrlərlə yanaşı, "I love Baku" milli brendinin Azərbaycana dair suvenirləri və "Azərmarka"nın məhsullarını da əldə edə biləcəklər.

Mərkəzdə quraşdırılan monitorlarda yeni kitablar haqqında məlumatlar veriləcək. Eyni zamanda, kitabsevərlər sensor ekranlarda mərkəzdə satılan kitablar haqqında da məlumatlar alacaqlar. Burada, həmçinin oxu zalı, elmi fəaliyyətlə məşğul olanlar üçün tədris guşəsi var.

Burada mütəmadi olaraq müxtəlif kitab təqdimatları, məşhur yazıçılar, şairlər, həmçinin sevilən mədəniyyət və incəsənət xadimləri ilə görüşlər, ustad dərsləri olacaq. Bundan başqa, Mərkəzdə uşaq və yeniyetmələrdə mütaliəyə marağı artırmaq üçün tanınmış şəxslərin iştirakı ilə oxu günləri, dil kursları və digər tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bakı Kitab Mərkəzinin 3 dildə saytı fəaliyyət göstərəcək və oxucular bu internet səhifəsi vasitəsilə kitablar sifariş edə biləcəklər.

Bakı Kitab Mərkəzində oxuculara Heydər Əliyev Fondunun ayrı-ayrı sahələr üzrə nəşrləri də təqdim edilir. Fondun ulu öndər Heydər Əliyev, tariximiz, mədəniyyətimiz, incəsənətimiz, görkəmli şəxsiyyətlərimiz haqqında bir-birindən maraqlı nəşrləri müxtəlif dillərdə ölkəmizin təbliği baxımından mühüm rol oynayır.

## "Qu quşları" fəvvarə kompleksi paytaxtın "əfsanəvi" məkanına çevrildi



Avqustun 28-də Bakı Bulvarının tarixi rəmzlərindən biri olan və yenidən bərpa edilən "Qu quşları" fəvvarə kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva kompleksin açılışında iştirak ediblər.

Bakı Bulvarındakı "Qu quşları" fəvvarəsi 1960-cı illərdə qurulub. 1960-1980-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda genişmiqyaslı quruculuq işləri həyata keçirilir, o cümlədən Bakıda memarlıq kompleksləri və paytaxtın simasını dəyişən binalar inşa edilirdi. Bakı dənizkənarı parkı da hamının diqqətini cəlb edən gözəl məkana çevrildi. Azneft dairəsi ərazisində qurulan "Qu quşları" fəvvarəsi də sakinlərin və şəhərimizin qonaqlarının sevimli məkanlarından biri kimi tanındı. Dahi şair Nizami Gəncəvi və görkəmli bəstəkar Qara Qarayevin "Yeddi gözəl" poeması və baletindən ruhlanaraq yaradılan və 7 qu quşu heykəlindən ibarət fəvvarə sakinlərin çox xoşuna gəldi və necə deyərlər, paytaxtın "əfsanəvi" məkanına çevrildi.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu tarixi ansambl yenidən bərpa edilmiş və tarixi siması özünə qaytarılmışdır. Bu ansamblın yenidən öz tarixi simasını bərpa etməsi nəticəsində bütün dünyada məşhur olan Bakı Bulvarının siması daha da gözəlləşdi.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada görülən işlər barədə məlumat vermişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub, təbii daşlar üzərində heykəltəraş Murad Sücəddinov tərəfindən 7 qu quşu heykəli hazırlanıb.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, tarixi ənənələrin qorunması ideyasına söykənən layihə üzərində işlər yüksək səviyyədə həyata keçirilib. Vacib məqamlardan biri də odur ki, qu quşları 1960-cı illərdə olduğu kimi, hər biri fərqli ölçüdə və fərqli hərəkəti təsvir edərkən hazırlanıb. Fəvvarələr qurularkən işıqlandırmaya xüsusi diqqət yetirilib. İndi bu məkan həm yerli sakinlər, həm də turistlər üçün yeni istirahət yeri olmaqla yanaşı, keçmişdə çox sevilən bulvarın bu hissəsində yaşanan xatirələri də canlandıracaq.

Dövlətimizin başçısı və birinci xanım Dənizkənarı Milli Park-da kiçik Venesiya şəhərciyinin ərazisinə də baxmışlar.



# Əsas məqsəd vətəndaşların gündəlik həyatını asanlaşdırmaq və daha da yaxşılaşdırmaqdır

Son illərdə ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçib. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmayıb. Təhsilin inkişafına xüsusi önəm verən Azərbaycan da əhalisinin savadlılığı baxımından dünyanın bir çox inkişaf etmiş ölkələri ilə müqayisə olunur. Dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi ilə diqqət çəkir. Fondun təhsil sahəsində gördüyü işlər sırasında müxtəlif bölgələrdə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı müstəsna



əhəmiyyət daşıyır. 2003-cü ildən indiyə qədər ölkədə 3000-dən çox məktəb tikilib, Azərbaycanda heç vaxt olmayan qədər geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Bununla da ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 132 şagird yerlik Şamaxı rayonu şəhid Aslan Şirinov adına Meysəri kənd tam orta məktəbinin yeni binasının açılışında iştirak ediblər.

* * *

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıya səfər çərçivəsində Meysəri kəndindəki "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışında iştirak ediblər.

"Şirvan şərabları" MMC-nin icraçı direktoru Ceyhun Soltanov dövlətimizin başçısına və xanımına kompleks barədə məlumat vermiş, bildirmişdir ki, üzümçülük və şərabçılıq kompleksinin ümumi sahəsi 310 hektardır. Kompleksin ərazisində sahəsi 4398 kvadratmetr olan şərab zavodu müasir texnologiya ilə inşa edilib və Fransanın "Pera" şirkətinin avadanlıqları ilə təchiz olunub. Müəssisənin hədəfi illik 1,4 milyon litr şərab istehsalına nail olmaqdır. Həmçinin regionun turizm potensialını da nəzərə alaraq kompleksə turist turlarının təşkil olunması və nəticədə ölkəmizdə şərabçılıq turizminə töhfə vermək də müəssisənin qarşıya qoyduğu məqsədlərdəndir. Bu məqsədlə ərazidə şərab muzeyi və restoran binası, terras istifadəyə verilib, qonaqlar üçün avtodayanacaq və qonaq evi tikilib. Uşaqlar üçün əyləncə zonası da yaradılıb.

* * *

Prezident İlham Əliyev avqustun 25-də İsmayıllı rayonuna səfər edib və səfər çərçivəsində Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə məlumat vermişdir. Bu cür layihələrin icrası, ümumilikdə, kənd və qəsəbələrin sosial-iqtisadi inkişafına töhfə verir, sakinlərin rahat və təhlükəsiz gediş-gəlişini təmin edir.

* * *

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonunun Keyvəndi kəndinin ərazisində istifadəyə verilən "AZZA AGRO" MMC-nin 1000 başlıq müasir heyvandarlıq kompleksinin açılışında iştirak edib.

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, ölkədə ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə yeni heyvandarlıq kompleksləri yaradılır. Respublikada ət və süd məhsullarına olan tələbatın yerli istehsal hesabına tam ödənilməsi məqsədilə dövlət tərəfindən hərtərəfli dəstək göstərilir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 264,1 milyon manat olan 49,9 min başlıq 27 müasir cins heyvandarlıq kompleksinin yaradılmasına 111,7 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, İqtisadiyyat Nazirliyi tərəfindən 9 heyvandarlıq kompleksinin yaradılmasına ümumi dəyəri 68,4 milyon manat olan investisiya təşviqi sənədi verilib ki, nəticədə qənaət olunmuş 746 min manat vəsait sahibkarlar tərəfindən həmin layihələrin icrasına yönəldilib. Ölkədə müasir heyvandarlıq komplekslərinin yaradılması nəticəsində xaricdən yüksək məhsuldar cins heyvanlar gətirilərək əhalinin keyfiyyətli ət və süd məhsullarına olan tələbatının yüksək səviyyədə ödənilməsi təmin edilir. Yeni yaradılan heyvandarlıq təsərrüfatlarından biri də İsmayıllı rayonunun Keyvəndi kəndi ərazisində istifadəyə verilən "AZZA AGRO" MMC-nin müasir heyvandarlıq kompleksidir.

İqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Zöhrab Aslanov kompleksdə görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat vermişlər.

Şahin Mustafayev dövlətin güzəştli kreditləri hesabına yaradılan heyvandarlıq kompleksləri barədə danışarkən qeyd etdi ki, indiyə qədər yaradılan cins heyvandarlıq komplekslərinin sayı 27-yə çatıb. Bu müəssisələrin illik istehsal gücü 150 min ton süd və 6 min ton ət təşkil edir. Bu il istifadəyə verilməsi nəzərdə tutulan 4 heyvandarlıq kompleksində isə 6600 cins heyvan saxlanılacaq. Həmin müəssisələrin illik istehsal gücü isə 11 min ton süd, 2 min ton ət olacaq.

Gələcəkdə əkin sahələrinin 800 hektara çatdırılması nəticəsində kompleksin yem tələbatının tam daxili imkanlar hesabına təmin edilməsi, eləcə də ət və süd məhsullarının emalı sahələrinin yaradılması nəzərdə tutulur.

* * *

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İsmayıllı filialının açılışında iştirak edib.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına ölkəmizdə xalçaçılığın inkişafı və bu müəssisənin fəaliyyəti barədə məlumat vermişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də İsmayıllı rayonuna səfəri çərçivəsində burada yenidən qurulan 110/35/10 kilovoltluq 2x16 MVA gücə malik "İsmayıllı" yarımstansiyasının açılışında iştirak edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev Prezident İlham Əliyevə müəssisənin fəaliyyəti barədə məlumat vermişdir.

* * *

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonuna səfəri çərçivəsində Qaraməryəm-İsmayıllı-Şəki yolunun 5-ci kilometrliyindən ayrılan Kürdmaşı-Kəlbənd-Girk avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib.

* * *

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonunda "Buta Qrup" MMC tərəfindən yaradılan aqroparkın açılışında iştirak edib.

İqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Bəşir Quliyev aqroparkda görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat vermişlər.

Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq ölkəmizdə aqroparkların yaradılmasına başlanılıb. Dövlətimizin başçısının yürütdüyü uğurlu aqrar siyasət, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarına uyğun olaraq yaradılan infrastruktur, suvarma və irriqasiya sistemləri, maliyyə dəstəyi və subsidiyalar, aqrar sektora vergi güzəştləri kəndliyə son illərdə bol məhsul yetişdirməsi üçün geniş imkanlar yaradıb. Prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı müvafiq Fərmanla aqroparkların yaradılması məhz bu problemlərin aradan qaldırılmasına yönəlib. Aqroparklar fermer təsərrüfatlarının idarə olunmasının mütərəqqi aqrar-sənaye üsuluna keçidinin inteqrasiyasını, məhsuldarlığın artırılması və saxlama şəraitinə görə itkilərin azaldılmasını, ixrac coğrafiyasının genişləndirilməsini və "Made in Azerbaijan" brendi ilə xarici bazarlara çıxışını təmin etməyə şərait yaradır. Yeni aqroparklardan biri də İsmayıllı rayonunun Kürdmaşı kəndində "Buta Qrup" MMC tərəfindən yaradılan aqroparkdır.

Ümumi dəyəri 22 milyon manat olan aqroparkın yaradılmasına birinci mərhələdə 7,7 milyon manat investisiya qoyulub. Hazırda ölkənin 30 rayonu üzrə 192,2 min hektar ərazidə dəyəri 1,4 milyard manatdan çox olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu il istifadəyə verilən aqroparkların sayının 14-ə çatdırılması planlaşdırılır.

* * *

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni salınan Dəmirçi-Lahıc avtomobil yolunun açılışında iştirak ediblər.

* * *

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının açılışında iştirak ediblər.

* * *

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak etmiş, sonra isə Şamaxı Safari Parkında olmuşlar.

# Almaniya-Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcək



Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkel avqustun 25-də Azərbaycan Respublikasına səfərə gəlmişdir.

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşündən sonra Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin iş adamları ilə görüşü olub.

Azərbaycan Prezidenti və Almaniyanın Federal Kansleri görüşdə çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxış edərək demişdir:

- Bu gün biz iş adamlarının iştirakı ilə görüşümüzü davam etdiririk. Qeyd etməliyəm ki, Almaniyadan olan şirkətlər Azərbaycanda uzun illərdir fəaliyyət göstərir, onlar bir çox sahələrdə işləyiblər, müxtəlif layihələr icra ediblər. Yalnız dövlət vəsaiti hesabına Almaniya şirkətləri dəyəri 1 milyard dollardan çox layihələr icra ediblər və əminəm ki, gələcəkdə bu rəqəm daha da artacaq. Alman şirkətləri Azərbaycanda yaxşı tanınır, onların keyfiyyəti, texnologiyaları bizim ölkəmiz üçün çox böyük fayda verir. Azərbaycan indi müasirləşmə dövrünü yaşayır, iqtisadi şaxələndirmə bizim əsas prioritetimizdir. Bütövlükdə deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb, ölkəmizin makroiqtisadi vəziyyəti sabitdir, xarici borc ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir, işsizlik 5 faiz səviyyəsindədir. Son 15 il ərzində Azərbaycana 250 milyard dollar sərmayə qoyulubdur. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görüb və bu, onu göstərir ki, iqtisadi şaxələndirmə siyasəti Azərbaycanda uğurla aparılır. Biz əlbəttə ki, böyük neft-qaz resurslarına malikik, onları ixrac edirik, amma əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu sahədə əlbəttə ki, Almaniyadan olan şirkətlər bizə kömək göstərə bilərlər.

Hazırda kənd təsərrüfatının inkişafı, turizm, informasiya-kommunikasiya sektoru, infrastruktur layihələri, o cümlədən dəmir yollarının modernləşdirilməsi, inşaat sektoru və digər sahələr prioritetlər sırasındadır.

Əminəm ki, bu gün keçiriləcək söhbət nəticəsində yeni kontraktlar imzalanacaq, yeni əməkdaşlıq formatı yaradılacaqdır.

Beləliklə, Sizi bir daha salamlayıram və əminəm ki, səfərinizin son hissəsi də uğurlu keçəcək.

* * *

Almaniya Kansleri Angela MERKEL çıxış edərək demişdir:

- Biz bu gün ikitərəfli münasibətlər haqqında intensiv fikir mübadiləsi apardıq. Eləcə də Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri haqqında fikir mübadiləsi apardıq. Azərbaycanın geostrateji ərazidə yerləşməsi, İran və Rusiya ilə sərhədlərə malik olması, Türkiyə ilə sıx münasibətləri barədə də danışdıq.

Azərbaycan Avropanın enerji təminatının şaxələndirilməsində Avropa İttifaqı üçün mühüm bir ölkədir. Bu binadan da gördüyümüz kimi, Azərbaycan çox sürətli inkişafa nail olub. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsi yaxşı faktdır.

Alman iqtisadiyyatının da geniş şaxəli olması burada yaxşı partnyorluq üçün əsas yaradır. Azərbaycanda alman xarici ticarət palatası var, burada 150-dən çox alman müəssisəsi fəaliyyət göstərir. Prezident də qeyd etdi ki, ölkənin iqtisadiyyatının inkişafına töhfə vermək üçün digər müəssisələr də ürəkdən dəvət olunur. Bizim bunda böyük marağımız var.

Azərbaycan dünyəvi bir dövlətdir. Biz bu barədə danışdıq. Bu gün Azərbaycan dünyəvi müsəlman dövlətidir. Baxmayaraq ki, biz bu gün dünyanın bir çox ölkələrində islamlaşmanın daha da güclənməsi trendlərini müşahidə edirik.

Azərbaycanın iqtisadiyyatı üçün bu uğurların böyük əhəmiyyəti var. Almaniya bu sahədə yaxşı partnyor ola bilər. Mən çox şadam ki, yaranmış bu imkandan istifadə edib sizi dinləyə biləcəyik.

# Azərbaycana, yoxsa Əfqanıstana gəldiyini bilməyən alman jurnalisti bizə demokratiya dərsi keçmək istəyir

Azərbaycan Prezidenti İlham Əliyevin və Almaniyanın Federal Kansleri Angela Merkelin birgə mətbuat konfransı zamanı alman jurnalistlərindən birinin verdiyi sual göstərdi ki, o harada – Azərbaycanda, yoxsa Əfqanıstanda olduğunu bilmir, amma bizə demokratiya dərsi keçmək istəyir.

AZƏRTAC jurnalistin sualını olduğu kimi təqdim edir: "Bu yaxınlarda, müxalifət lideri İlqar Məmmədov azadlığa buraxılıb.

Araşdırma aparan bir çox jurnalist, o cümlədən Əfqan Muxtarlı həbsdə qalır. Buna görə Avropa Şurası sizi tənqid edir. İndicə istinad etdiyiniz kimi, Almaniya və Avropa İttifaqı ilə bu cür sıx iqtisadi əməkdaşlıqla siz Avropa Şurasında Əfqanıstan kimi özünüz üzərinizə götürdüyünüz öhdəlikdən irəli gələrək, bir daha insan hüquqları standartlarına doğru addımlar atmağa başlayacaqsınızmı?"

Almaniya kimi inkişaf etmiş bir ölkənin özünü hamıdan üstün sayan KİV nümayəndəsinin harada olduğunun fərqinə varmaması həm təəccüb doğurur, həm də inanılmaz görünür. Bu, onun qeyri-peşəkarlığının, savadsızlığının göstəricisidir, yoxsa sayğısızlığının? Demək çətindir. Hər halda öz ölkəsinin hökumət başçısının səfərini işıqlandıran bir jurnalistin bu cür kobud səhvi gülünc görünür, Almaniya mediasının üzərinə kölgə salır.

İndiki halda inandırıcı görünən odur ki, bu sual Azərbaycanı sevməyən, onun demokratik inkişafını gözü götürməyən hansısa dairələrin sifarişidir və onlar tərəfindən hazırlanaraq jurnalistə ötürülüb. O da fərqinə varmadan Azərbaycan əvəzinə Əfqanıstan deyib. Bu cür jurnalistlərə məsləhət görərdik ki, səfər etməzdən əvvəl heç olmasa hara getdiklərini öyrənsinlər. Yoxsa Bakıda olduğu kimi, özlərini gülünc vəziyyətə salarlar.

Azərbaycan Prezidenti növbəti dəfə öz yüksək mədəniyyətini nümayiş etdirərək, bu səhvi müxbirin üzünə vurmadı. Öz ətraflı cavabı ilə Azərbaycanın demokratik dəyərlərə sadiq ölkə olduğunu, bütün azadlıqların, o cümlədən söz və mətbuat azadlığının təmin edildiyini, fərqli baxışa görə heç kimin təqib olunmadığını, heç kimin cəzalandırılmadığını konkret faktlarla əsaslandırdı.

# TAP-ın Yunanıstan və Albaniya marşrutunun 72 faizində torpaq örtüyü bərpa olunub

Azərbaycan təbii qazını Avropaya çatdıracaq “Trans-Adriatik” (TAP) qaz boru kəmərinin inşası çərçivəsində Yunanıstan və Albaniya marşrutunun 72 faizində torpaq örtüyü tamamilə əvvəlki vəziyyətinə gətirilib.
Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, boru kəmərinin 765 kilometrlik Yunanıstan və Albaniya hissəsinin 550 kilometrində torpaq örtüyü bərpa edilib.
Qeyd edək ki, TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 75 faizdən çoxu icra edilib. Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Yunanıstanda - Kipoidə, digəri isə Albaniyada - Fierdə olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına ötən ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Fierdəki stansiyaya turbo kompressorlar çatdırılıb və quraşdırılıb. Bu kompressor stansiyasının tikintisinin ümumilikdə 40 faizdən çoxu tamamlanıb. Kompressor stansiyaları ilə yanaşı, Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Ölçmə stansiyasındakı işlərə keçən ilin birinci rübündə başlanılıb. Hazırda tikinti işlərinin 40 faizi yekunlaşıb.
Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək.
TAP qaz boru kəməri üçün lazım olan turbo kompressorlar isə “Siemens” şirkəti tərəfindən istehsal edilib.
Xatırladaq ki, TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, “Şahdəniz-2”dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan Cənub Qaz Dəhlizinin bir seqmentidir.
Layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur və may ayının sonuna TAP-a 3 milyard avro sərf olunub. Cənub Qaz Dəhlizinə daxil olan layihələrdə “Cənub Qaz Dəhlizi” QSC-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə qoyulan 9,1 milyard dollar vəsaitin isə 0,7 milyard dollardan çoxu TAP layihəsinə xərclənib. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.
Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. Layihənin dəyərinə dizayn və mühəndislik işləri də daxil edilib. “Şahdəniz” konsorsiumu ilk qaz satışını 2018-ci ildə Türkiyəyə həyata keçirib. Avropaya ilk qazın verilməsi isə 2020-ci ilə planlaşdırılır.

# Neft Fondu 2003-2017-ci illərdə dövlət büdcəsinə 77,6 milyard manat transfert edib

2003-2017-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən dövlət büdcəsinə, ümumilikdə, 77,6 milyard manat vəsait transfert edilib.
Bu barədə ARDNF-nin 2017-ci il üzrə fəaliyyəti haqqında hesabatı, maliyyə fəaliyyəti haqqında hesabatının auditinin nəticələrini özündə əks etdirən illik hesabatında deyilir.
Qeyd edək ki, cari ilin birinci yarısında isə Neft Fondu tərəfindən 4 milyard 608 milyon manat vəsait dövlət büdcəsinə transfert olunub.
Hesabatda, həmçinin bildirilir ki, 2001-2017-ci illər ərzində Neft Fondunun daxilolmaları 137,87 milyard dollar səviyyəsində olub və bu vəsaitin təxminən 35,8 milyard dolları, yəni 26 faizi yığıma yönəldilib.

# Daha bir şirkət “Caspian Energy Forum Baku-2018”in partnyoru olub

“Brücke GmbH” sentyabrın 20-də Azərbaycan hökumətinin və “Caspian European Club”un dəstəyi ilə keçiriləcək VII Beynəlxalq “Caspian Energy Forum Baku-2018”-in rəsmi Avropa partnyoru olub.
Bu barədə “Caspian European Club”un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev məlumat verib. Onun sözlərinə görə, “Brücke GmbH” eksklüziv şəkildə Avropa şirkətlərinin və investorların “Caspian Energy Forum Baku-2018”-də iştirakının təşkili ilə məşğul olur.
“Brücke GmbH”-in regional direktoru Darya Buryaçenko qeyd edib ki, şirkət “Caspian Energy Forum Baku-2018”-in bir hissəsi olmaqdan və çoxlu sayda avropalı nümayəndələrin bu forumda iştirakına yardım etməkdən məmnundur:
“Əminəm ki, “Caspian Energy Forum” bütün iştirakçılar üçün yeni biznes əlaqələrin qurulması, mövcud münasibətlərin möhkəmlənməsi və potensial biznes axtarışı üçün meydan rolunu oynayacaq”.
“Caspian Energy Forum Baku-2018”-də sıralarında Xəzər-Qara dəniz və Baltik regionu ölkələrinin dövlət qurumlarının, nazirliklərinin, dövlət komitələrinin, dövlət agentliklərinin, dövlət xidmətlərinin rəhbərlərinin, həmçinin dövlət və transmilli şirkətlərin, beynəlxalq maliyyə institutlarının, aparıcı analitik mərkəzlərin, investisiya şirkətlərinin və reytinq agentliklərinin başçılarının, həmçinin Azərbaycanda akkreditə olunmuş diplomatik və beynəlxalq missiya nümayəndələrinin yer aldığı 1500-dən çox nümayəndə iştirak edəcək.

# Növbəti ixrac missiyası Çinə gedir

"Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən növbəti ixrac missiyası avqustun 29-dan sentyabrın 3-dək Çin Xalq Respublikasının Urumçi şəhərinə təşkil olunacaq.
Nazirliyin mətbuat xidmətindən bildirilib ki, ixrac missiyasına müsabiqə əsasında seçilmiş və qida, təbii mineral sular, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə istehsalı sahəsində fəaliyyət göstərən 21 Azərbaycan şirkəti daxildir.
Səfər zamanı Azərbaycan və Çin şirkətlərinin nümayəndələri arasında ikitərəfli görüşlər keçiriləcək, ixrac məsələləri müzakirə ediləcək.
İxrac missiyası çərçivəsində İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə ölkəmizin məhsulları Urumçidə keçiriləcək "Çin-Avrasiya" sərgisində də nümayiş olunacaq.

# "AzerGold” qızılını Neft Fonduna satacaq

"AzerGold” QSC hasil etdiyi qızılın Azərbaycan Dövlət Neft Fonduna (ARDNF) satışına dair müqavilənin hazırlanması üzrə işləri başa çatdırır.
Bu barədə cəmiyyətin sədri Zakir İbrahimov məlumat verib.
"Hazırda “AzerGold” fondun müvafiq müraciəti əsasında müqavilə (qızıl satışına dair) üzərində işi yekunlaşdırmaq üzrədir. Daha sonra hasil etdiyimiz qızıl ARDNF-yə veriləcək və bununla da fondun qızıl ehtiyatı Azərbaycan qızılının hesabına da formalaşacaq”, – deyə o, AzTV-yə müsahibəsində də bildirib.
"AzerGold"un məlumatına görə, 2017-ci ilin aprel ayından bu günədək cəmiyyət “Çovdar” yatağından hasil edilmiş 81,1 min unsiya qızıl və 120,5 min unsiya gümüşün ixracı və beynəlxalq bazarlarda satışından 180 mln. manatdan çox gəlir əldə edib.
"AzerGold" QSC Prezident İlham Əliyevin 11 fevral 2015-ci il tarixli fərmanı ilə yaradılıb. ARDNF-də neft müqavilələrinin reallaşmasından, əsasən dövlətin mənfəət neftinin satışından, ölkə ərazisində neft və qaz nəqlinə görə tranzit tariflərindən, dövlət əmlakının icarəsindən daxil olan gəlirlər toplanır.

# Azərbaycan Dubayda Ticarət Evi açacaq

2018-ci ilin sonunadək Azərbaycan Dubayda Ticarət Evi açacaq. Bunu açıqlamasında Azərbaycanın Dubaydakı ticarət nümayəndəsi Elnur Əliyev bildirib.
E.Əliyevin sözlərinə görə, hazırkı mərhələdə Dubayda Azərbaycan Ticarət Evinin açılması üzrə ciddi layihə üzərində geniş iş gedir:
"Ticarət Evinin açılmasından sonra iki istiqamətdə işləməyi planlaşdırırıq: birincisi, məhsulların pərakəndə satışını inkişaf etdirmək, ikincisi isə müxtəlif Azərbaycan məhsullarının topdan alıcılarının axtarışı istiqamətində. Birləşmiş Ərəb Əmirliklərinə ixrac edilən məhsulların həcminin artırılması ilə yanaşı, tədarükümüzün sabitliyini təmin etməyi planlaşdırırıq. Bu, çox vacib nüansdır, çünki məhsulumuzun BƏƏ-nin bazarlarına daimi tədarükü, xüsusilə də Dubay bazarlarında potensial idxalçılar və alıcıların etimadını artıracaq. Digər tərəfdən, bu, Azərbaycanın ixracdan gəlirlərini artıracaq".



Nümayəndə qeyd edib ki, Dubaydakı Ticarət Evində Azərbaycan istehsalı olan məhsullar təqdim olunacaq, onun ziyarətçiləri Azərbaycanın mədəniyyəti, zəngin mətbəxi ilə tanış ola biləcəklər:
"Biz məhsullarımızın təqdim olunacağı müxtəlif sərgilərin keçirilməsini planlaşdırırıq. Bununla da çalışırıq ki, potensial alıcı və ziyarətçilərimizdə təkcə məhsulu almaq deyil, həmçinin Azərbaycanı ziyarət etmək istəyi də yaransın. Yəni, üzərində işlədiyimiz bu konsepsiya, həmçinin BƏƏ-dən Azərbaycana turist axınının artırılmasına yönəlib. Azərbaycan Ticarət Evi Dubayın ən prestijli yerlərindən birində açılacaq. Hazırda xarici həmkarlarımızla danışıqlar aparırıq ki, gələcəkdə irimiqyaslı sərgilər keçirək". O bildirib ki, Ticarət Evində xüsusi məlumat ofisi fəaliyyət göstərəcək və burada istənilən şəxs Azərbaycan haqqında daha ətraflı və onu maraqlandıran, o cümlədən turizm sahəsində məlumat əldə edə bilər: "Ticarət Evinin açılması BƏƏ-yə qeyri-neft sektoru məhsullarının ixracının artmasına, Azərbaycan məhsullarının irəliləməsinə və ikitərəfli ticarətin genişlənməsinə səbəb olacaq".
E.Əliyev, həmçinin vurğulayıb ki, Azərbaycan qitənin müxtəlif yerlərində ixracatçı kimi böyük maraq doğurur, bu da dövlətin düzgün və düşünülmüş iqtisadi siyasətindən xəbər verir.

# İpoteka və Kredit Zəmanət Fondu indiyədək 1,1 milyard manatadək ipoteka krediti verib

"Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu"-nun xətti ilə bu vaxtadək verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb. Fonddan bildiriblər ki, İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə indiyədək 23 min 415 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 1 milyard 94 milyon 489 min manatdan çoxdur.

# ГОСУДАРСТВЕННОЕ АГЕНТСТВО ПО ТУРИЗМУ ОРГАНИЗОВАЛО ТУР ДЛЯ ВЕТЕРАНОВ



При организационной поддержке Государственного агентства по туризму был организован однодневный тур в туристический центр «Шахдаг» для 40 членов Организации ветеранов войны, труда и Вооруженных сил. Как сообщили АЗЕРТАДЖ в агентстве, в рамках тура, организованного в связи с Гурбан байрамы, были созданы все условия для отдыха ветеранов и членов их семей.

Структура в связи с исполнением «Государственной программы по усилению социальной защиты пожилых граждан» планирует регулярно проводить подобные туры для представителей соответствующих категорий населения, в том числе для ветеранов, которые прошли службу в советской армии (флоте), органах внутренних дел и государственной безопасности, принявших участие в боевых действиях во имя защиты Родины, а также для того, чтобы уделить социальное внимание и заботу ветеранам труда, организовать их эффективный досуг.

# В СЕНТЯБРЕ СТАРТУЕТ СЕЗОН ТОРГОВО-ПРОМЫШЛЕННЫХ ВЫСТАВОК

В сентябре вновь откроется сезон специализированных торгово-промышленных выставок в Азербайджане, которые организуют выставочные компании Iteca Caspian и Caspian Event Organisers. "Осенние выставки" затронут ненефтяные сферы экономики и пройдут при поддержке государственных структур Азербайджанской Республики. Как сообщили АЗЕРТАДЖ в пресс-службе компании Iteca Caspian, начнется сезон с премьер, а именно со старта I Азербайджанской международной выставки "Подарки и промо-продукция" Gift&Promo Fair и I Азербайджанской международной выставки "Реклама и печатное производство" Adprint. Gift&Promo Fair станет своего рода витриной индустрии подарков, предлагая широкий выбор бизнес-, ВИП-подарков, рекламных и промо-сувениров, а также подарков, предназначенных для дарения любимым и друзьям. Соответственно Adprint представит инновационные товары и услуги в области рекламы и печати. Выставки пройдут с 20 по 22 сентября в Boulevard Hotel Baku.

# Беларусь станет почетным гостем международной выставки Vietnam Expo-2018



Национальная экспозиция Беларуси будет организована на международной выставке Vietnam Expo, которая пройдет в Хошимине с 5 по 8 декабря. Об этом БЕЛТА сообщили на выставочном унитарном предприятии "Белинтерэкспо" Белорусской торгово-промышленной палаты (БелТПП).В нынешнем году Беларуси присвоен статус почетного гостя выставки. Национальная экспозиция продемонстрирует образцы сельскохозяйственной и коммунальной техники, широкий ассортимент химической и нефтехимической продукции, научно-технические разработки, новинки фармацевтического производства, продукты питания и напитки. Участие в Vietnam Expo подтвердили более 25 белорусских предприятий. В их числе МАЗ, МТЗ, "Белшина", Борисовский завод медицинских препаратов, Институт биоорганической химии НАН Беларуси, Волковысский мясокомбинат, "Коммунарка", "Красный пищевик". БелАЗ проведет презентацию инновационных моделей карьерной техники в формате виртуальной реальности. С помощью VR-очков можно будет оценить возможности самосвалов грузоподъемностью 110 и 130 т, предназначенных для работы в сложных горнотехнических и климатических условиях.

Vietnam Expo - одна из крупнейших универсальных торгово-экономических выставок Юго-Восточной Азии. В 2017 году в ней приняли участие более 750 компаний из 16 стран, ее посетили 12 тыс. человек.

"Большой интерес к выставке объясняется тем, что сегодня Вьетнам - не только выгодный потребительский рынок, насчитывающий более 92 млн человек, но и торговые ворота во всю Юго-Восточную Азию. Более половины населения Вьетнама занято в сельском хозяйстве, поэтому тракторы, грузовые автомобили, шины и комплектующие очень востребованы в этой стране. Еще больше возможностей открывается здесь для мировых экспортеров в сфере продовольствия", - рассказали в "Белинтерэкспо".

# Беларусь заинтересована ускорить сертификацию для поставок мяса птицы в Евросоюз

Беларусь заинтересована ускорить сертификацию птицефабрик, чтобы начать экспорт мяса птицы и продукции из него в Европейский союз. Об этом заявил заместитель премьер-министра Михаил Русый сегодня на встрече с европейским комиссаром по вопросам охраны здоровья и безопасности продовольственных продуктов Витянисом Андрюкайтисом, передает корреспондент БЕЛТА.По информации вице-премьера, европейские инспекторы несколько раз детально осмотрели пять белорусских птицефабрик, которые претендуют на сертификацию. Белорусская сторона скрупулезно решает вопросы, поставленные представителями ЕС, подчеркнул Михаил Русый. Кроме того, Беларусь рассчитывает в целом на расширение перечня продукции, разрешенной к ввозу в Евросоюз, и, как следствие, на рост взаимного экспорта и товарооборота. Еще один вопрос, поднятый на встрече в правительстве, - это транзит белорусских продуктов в Калининградскую область России, который в настоящее время затруднен. "Мы открыты и готовы решать многие вопросы, в том числе те, которые ставятся Евросоюзом, - по АЧС и другим направлениям", - отметил Михаил Русый. Он напомнил,




что после обнаружения африканской чумы свиней в Беларуси в 2013 году были предприняты очень жесткие меры для урегулирования ситуации.Витянис Андрюкайтис подчеркнул приверженность сотрудничеству с белорусскими властями по вопросам, касающимся здоровья животных, и предложил усилить обмен информацией по надзору за состоянием заболеваемости животных, а также сотрудничество по диагностике таких заболеваний. "Сотрудничество трансграничного характера между Европейским союзом и Беларусью по вопросам надзора за заболеваемостью животных ведется несколько лет. Мы рассчитываем расширить его, в том числе уделить внимание африканской чуме свиней", - пояснил Витянис Андрюкайтис.

# Азербайджан, Турция и страны Центральной Азии создают Центр кочевой цивилизации



Азербайджан, Турция, Казахстан и Кыргызстан создают Центр кочевой цивилизации. Соответствующее постановление правительства Казахстана опубликовано на сайте информационно-правовой системы нормативных правовых актов РК «Әділет». Центр будет расположен в Бишкеке. Миссия Центра - создание сферы взаимного доверия и сотрудничества между тюркоязычными народами и другими государствами путем развития спорта, организовывая спортивные мероприятия и популяризируя наследие каждого народа и государства с традициями кочевой культуры, и углубление интеграции посредством спорта.

Глава Центра будет назначаться Советом глав государств Тюркского совета по представлению Совета министров иностранных дел Тюркского совета.

Он будет избираться сроком на четыре года. Первым президентом Центра станет представитель Кыргызстана. Рабочими языками Центра являются государственные языки сторон, а также английский язык.

# Свыше 70% территорий вдоль трубопровода TAP приведены в исходное состояние

72 процента территорий вдоль Трансадриатического трубопровода (TAP) приведены в исходное состояние, говорится во вторник в сообщении консорциума TAP AG.

«Работы по восстановлению идут полным ходом. 550 километров, или 72 процента территорий вдоль маршрута приведены в исходное состояние», - говорится в сообщении.

Отметим, что TAP является частью проекта «Южный газовый коридор» и будет соединен с другим газопроводом - TANAP - на турецко-греческой границе: он будет проложен по территории Греции, Албании, дну Адриатического моря, а затем направлен на юг Италии.

Первоначальная мощность TAP составит 10 миллиардов кубометров газа в год с возможностью ее удвоения.

Ожидается, что строительство TAP будет завершено в 2020 году с тем, чтобы в этот же год первый азербайджанский газ попал в Европу.

Протяженность трубопровода составляет 878 километров, из которых 550 километров будут проложены по территории Греции, 215 километров - Албании, 105 километров - по дну Адриатического моря и восемь километров - по территории Италии.

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏT RƏMZLƏRİ

Azərbaycan Xalq Cümhuriyyətinin əsas dövlət atributları - Dövlət bayrağı, Dövlət gerbi, Dövlət himni və Dövlət möhürü. Azərbaycan Xalq Cümhuriyyəti elan edildiyi gündən dövlət rəmzlərinin yaradılmasına xüsusi diqqət verildi. Ən mühüm dövlət rəmzlərindən biri kimi Dövlət bayrağının qəbul edilməsi daha tez həyata keçirildi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il iyunun 21-də Dövlət bayrağı haqqında qərar qəbul etdi. Həmin qərara əsasən, qırmızı rəngli Dövlət bayrağı üzərində ağ rəngli aypara və səkkizgüşəli ulduz təsvir olunmuşdu. Bu bayraq cüzi fərqlə Osmanlı imperiyasının bayrağına bənzəyirdi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti hökuməti noyabrın 9-da Dövlət bayrağının təsvirini dəyişməyi qərara aldı. Yeni qərarla yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan milli bayraq qəbul edildi. Cümhuriyyətin Dövlət bayrağı Aprel işğalı (1920) nəticəsində ləğv edilsə də, Azərbaycan xalqının istiqlal mübarizəsində böyük rol oynadı. 1988-ci ildə Azadlıq hərəkatı başlandıqda üçrəngli bayraq yenidən qaldırıldı. Bununla da Məhəmməd Əmin Rəsulzadənin uzaqgörənliklə dediyi "Bir kərə yüksələn bayraq bir daha enməz" kəlamı özünü doğrultdu. Bu tarixi akt Azərbaycan SSR rəhbərliyinin də fəaliyyətinə ciddi təsir göstərdi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən 1-ci sessiyasında Azərbaycan Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu, 1990-cı il noyabrın 29-da "Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında" fərman verildi və 1991-ci il fevralın 5-də qanunvericilik orqanı tərəfindən təsdiq olundu.



Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında əsasnamə hazırlandı. Dövlət bayrağı haqqında məsələ Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmişdir. Konstitusiyanın 23-cü maddəsinin II bəndində göstərilir ki, "Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir".

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət bayrağı ilə birlikdə Dövlət gerbi, Dövlət möhürü və Dövlət himninin rəsmi qaydada qəbul edilməsi sahəsində müəyyən tədbirlər görülmüşdü. Dövlət gerbi və Dövlət möhürü haqqında ilk dəfə 1919-cu il martın 23-də müsabiqə elan olunmuşdu. 1920-ci il yanvarın 30-da Dövlət bayrağı istisna olmaqla, digər rəmzlər üzrə daha əhatəli müsabiqə keçirmək qərara alındı. Dövlət gerbinin layihəsi də sifariş verildi. Azərbaycan SSR Cümhuriyyət hökumətinin bu sahədəki tədbirlərindən imtina etmiş, öz gerbini qəbul etmişdi. Azərbaycan müstəqilliyini bərpa edəndən (1991,18 oktyabr) sonra dövlət gerbi haqqında yeni müsabiqə elan olundu. Müsabiqə komissiyasına daxil olan eskizlər Azərbaycan Respublikasının Milli Məclisində geniş müzakirə edildi, lakin onlar qənaətbəxş hesab olunmadı. Buna görə də yuxarıda bəhs olunan gerb layihəsini bərpa etmək qərara alındı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlanmış gerb layihəsi rəssam R.Məmmədov tərəfindən təkmilləşdirildi. 1993-cü il 19 yanvar tarixli Konstitusiya qanunu ilə Dövlət gerbinin rəngli və ağ-qara təsviri, fevralın 23-də isə Əsasnaməsi təsdiq edildi. Əsasnamədə göstərilirdi ki, "Azərbaycan Respublikasının Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd yarpaqları yaşıl, sünbüllər sarı, habelə qalxanın düymələri və palıd qozaları qızılıdır".

Azərbaycan Xalq Cümhuriyyəti dövründə qeyd olunan müsabiqəyə baxmayaraq, Dövlət himni də rəsmən qəbul edilməmişdi. Lakin həmin dövrdə bəstəkar Üzeyir Hacıbəylinin "Azərbaycan marşı" məşhur olmuşdur. Bəstəkar Aydın Əzimov tərəfindən böyük xor və orkestr üçün aranjeman edilmiş "Azərbaycan marşı" (sözləri Əhməd Cavadındır) Milli Məclisin 1992-ci il 27 may tarixli qərarı ilə Dövlət himni kimi qəbul olunmuşdur. 1993-cü il martın 2-də Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dövlət müstəqilliyini təcəssüm etdirən müqəddəs atributların vətəndaş cəmiyyətinin formalaşmasında, gənclərin vətənpərvərlik tərbiyəsində rolunu nəzərə alaraq 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" sərəncam imzalamışdır.

Azərbaycan Cümhuriyyətinin digər rəmzlərinin, o cümlədən dövlət möhürünün, orden və medallarının hazırlanmasına da xüsusi fikir verilmişdir. Müsabiqəyə təqdim olunmuş bəzi eskizlər Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar arxivində indiyədək saxlanılır. Xalq rəssamı Mikayıl Abdullayevin yazdığına görə, eskizlərin müəllifləri içərisində nəinki Bakıda, hətta Cənubi Qafqazın digər şəhərlərində yaşayıb yaradan rəssamlar da olub.

# Nüfuzlu CFA İnstitutunun akkreditasiyasını qazanan Azərbaycan universiteti - UNEC

UNEC nüfuzlu Sertifikatlaşdırılmış Maliyyə Analitikləri İnstitutunun (Chartered Financial Analyst - CFA) akkreditasiyasını qazanıb və İnstitut tərəfindən tərəfdaş universitet kimi qəbul edilib (CFA İnstiute University Affiliation Program). UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin (ISE) Maliyyə ixtisasının CFA proqramının tələb etdiyi Biliklər Məcmusunu (CFA Program Candidate Body of Knowledge (CBOK)) əks etdirdiyi, CFA İnstitutunun Etik Qaydalar və Peşəkar Davranış Standartlarının (Code of Ethics and Standards of Practice) tələblərinə cavab verdiyi və ISE-nin tədris proqramının tələbələrin maliyyə və investisiya sahəsində dünyanın ən nüfuzlu və tanınmış serifikatı olan Sertifikatlaşdırılmış Maliyyə Analitiki kvalifikasiyasına tam hazırlaması CFA İnstitutu tərəfindən təsdiqlənib. UNEC CFA İnstitutun tərəfdaşı kimi öz tələbələri üçün hər il CFA proqramı təqaüdlərini də əldə edəcək.

# Nəzarət kassa aparatından istifadə etməyən təsərrüfat subyektlərinə qarşı daha müasir metodlar tətbiq olunacaq



Vergilər Nazirliyi tərəfindən nəzarət-kassa aparatlarından (NKA) istifadə etməyən təsərrüfat subyektlərinə qarşı daha müasir metodlardan istifadə olunmaqla təsirli yanaşma mexanizmləri tətbiq olunacaq.

Nazirliyin media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, bu sahədə beynəlxalq təcrübəni öyrənən nazirlik NKA-larla bağlı ən müasir və innovativ nəzarət metodlarından istifadə imkanlarını araşdırır.

Hazırda dünya təcrübəsində olan müasir texniki nəzarət sistemlərinin tətbiqi öyrənilir və onların milli vergi sistemində istifadə olunması nəzərdən keçirilir.

Vergilər Nazirliyinin məqsədi sahibkarları qanunla müəyyən edilmiş öhdəliklərə riayət etməyə sövq etməkdir.

# Azercell Diaspor Gənclərinin I Yay düşərgəsində iştirak etdi



Gənclərin təhsilinə və inkişafına xüsusi önəm verən, bu sahədə müxtəlif sosial layihələr həyata keçirən "Azercell Telekom" MMC Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Cümhuriyyətin 100 illiyi" Diaspor Gənclərinin I Yay düşərgəsinə dəstək verib. Tədbirin açılış mərasimində Azercell tərəfindən qonaqlara hədiyyələr təqdim olunub.

"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin rəhbəri İmran Bağırov isə tədbirdə məruzəçi qismində iştirak edib. İmran Bağırov Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin fəaliyyəti və indiyə qədər həyata keçirilən layihələr, gənc startapların inkişafında və yeni bizneslərin qurulmasında Baramanın rolundan danışıb.

İ.Bağırov 9 il ərzində Barama Mərkəzinin 70-dən çox startap layihəyə dəstək olduğunu, onlardan 45-nin uğurlu biznes qurduğunu, mərkəz tərəfindən reallaşdırılan layihələrin həm yerli, həm də beynəlxalq qurumlar tərəfindən böyük maraqla qarşılandığını bildirib.

Qeyd edək ki, avqustun 22-dən 28-dək davam edən Diaspor Gənclərinin I Yay düşərgəsində ABŞ, Kanada, Yaponiya, Malayziya, İsveç, Rumıniya, İtaliya, İndoneziya, İngiltərə, bir sözlə, 37 ölkədən 140 diaspor gənci iştirak edib. Tədbir çərçivəsində ictimai şəxslər, millət vəkilləri, müharibənin ağrı-acısını yaşamış soydaşlarımız, vətəndaş cəmiyyətinin təmsilçiləri, mədəniyyət xadimləri, eləcə də yerli gənclər və diaspor sahəsinin ekspertləri ilə görüşlər baş tutub.

Düşərgədə gənclər siyasəti, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, mədəniyyətlərarası dialoq, diasporun inkişafı, mədəni maarifçilik irsi, idman, diaspor mövzusu mediada və s. kimi mövzularda ekspertlərin iştirakı ilə müzakirələr təşkil edilib.

# Azərbaycanda qızıl və gümüş bahalaşıb



Azərbaycanda qızıl və gümüş yenə bahalaşıb.

Trend-in məlumatına görə, avqustun 28-də qızılın qiyməti bazar ertəsi ilə müqayisədə 4,913 manat artaraq 1 troy unsiyası üçün 2056,439 manat təşkil edib.

Gümüş 0,0469 manat bahalaşaraq 1 unsiya üçün 25,2991 manata bərabər olub.

Platinin qiyməti 25,058 manat artaraq 1372,5545 manat, palladiumun qiyməti isə 15,827 manat artaraq 1613,045 manat təşkil edib.

Qeyd edək ki, troy unsiyası 31,1034768 qrama bərabər ölçü vahididir.

# Azərbaycanda yeni şəxsiyyət vəsiqələrinin verilməsinə başlanılır



Yeni şəxsiyyət vəsiqələrinin verilməsi üçün infrastrukturun sınaqları başa çatdırılıb.

Layihəyə yaxın mənbədən Trend-ə verilən məlumata görə, infrastruktur tamamilə hazırdır və yeni vəsiqələrin verilməsi sentyabr ayından başlayacaq. "Yeni şəxsiyyət vəsiqələri ölkə vətəndaşlarına kütləvi şəkildə deyil, mərhələlərlə veriləcək".

Yeni nəsil şəxsiyyət vəsiqələrinə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron çip yerləşdiriləcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# "PAŞA Bankın hesablaşma-kassa xidmətləri üzrə təqdim etdiyi tarif paketləri kiçik və orta sahibkar olan müştərilərə öz biznes xərclərini optimallaşdırmaq üçün ən uyğun seçimdir"

***Azərbaycanın aparıcı korporativ bankı - PAŞA Bank bazara kiçik və orta sahibkarlar üçün nəzərdə tutulmuş yeni hesablaşma-kassa xidmətləri paketini təqdim edir. Bu məhsul haqqında ətraflı məlumat əldə etmək üçün PAŞA Bankın Kiçik və orta sahibkarlıq üzrə bankçılıq departamentinin direktoru Aleksandr Qolovkoya müraciət etdik. Müsahibəni diqqətinizə çatdırırıq.***



**-Zəhmət olmasa, yeni məhsul - hesablaşma-kassa xidmətləri paketi haqqında bir qədər məlumat verərdiniz.**

- Ölkənin bank bazarına daima yeniliklər gətirən PAŞA Bank Kiçik və Orta Sahibkarlara biznes xərclərini optimallaşdıracaq hesablaşma-kassa xidmətləri üzrə tarif paketlərini təqdim edir. Tarif paketlərinin işləmə prinsipini mobil operatorlar tərəfindən təklif olunan paketlərin işləmə prinsipi ilə müqayisə etmək olar. Qeyd edim ki, Qərbi və Şərqi Avropanın bir çox ölkələrində aktiv istifadə olunan bu xidmət yerli bazarda da çox böyük marağa səbəb olacaqdır. Belə ki, tarif paketlərinin hazırlanmasında kiçik və orta sahibkarlıq biznesinin müxtəlif xüsusiyyətləri, eləcə də müştərinin bankla olan əməkdaşlıq formatı nəzərə alınmışdır. Müştəri biznesinə uyğun tarif paketini seçərək, bankla işini tənzimləyəcək və bir paketdə ona lazım olan bütün əməliyyatları əldə edəcək.

İlkin olaraq müştərilərə beş növ tarif paketi təqdim olunur. Müştəri öz biznesi üçün ən münasib tarif paketini seçib və aylıq xidmət haqqını ödəyərək, bir çox xidmətlərdən pulsuz və ya güzəştli tariflərlə istifadə etmək imkanı əldə edir.

Təqdim olunan yeni xidməti mobil operatorlar tərəfindən istifadəçilərə təklif olunan paket məhsulları ilə müqayisə etmək olar. Tarif paketləri bir - birindən funksionallığı ilə fərqlənir. Hər bir paketə müəyyən növ və həcmlərdə əməliyyatlar daxildir. Paket qiyməti ona daxil olan xidmətlərin həcmindən asılı olaraq dəyişir.

**- Müştəri tarif paketlərini əldə etməklə nə kimi üstünlüklər əldə edir? Yeni xidmətin standart təkliflərdən fərqi nədir?**

-Kiçik və orta sahibkarlar tarif paketlərindən birini seçərək, onlara lazım olan bütün növ müxtəlif əməliyyatları kompleks şəklində əldə edir. Bu, hesablaşma-kassa xidmətlərinin seçilməsini sadələşdirir, asanlaşdırır. Müştəriyə artıq böyük sayda xidmətləri və onlar üzrə tarifləri müqayisə etmək, tutuşdurmağa ehtiyac qalmır. Biz paketə daxil olan əməliyyatları seçərkən müştərilərimizin gündəlik həyata keçirdikləri əməliyyatları əsas götürmüşük, həmçinin xarici bankların təcrübəsini öyrənib, müxtəlif sorğular aparmışıq. Müştəri tarif paketlərini seçərkən özünə lazım olanı əldə edir. Müştəri üçün biznes fəaliyyətini əhatə edən bütün mühüm və zəruri funksiyaları özündə dəqiq cəmləşdirən paketlər çox rahatdır. Onlar həm istifadədə rahatdırlar, həm də maliyyə əməliyyatları zamanı pula və vaxta qənaət etməyə imkan verirlər. Bu paketlər müştərilərin tələblərinə və fəallığına tam uyğundur. Eyni zamanda, tarif paketlərinə qoşulan bütün müştərilərə internet bank xidmətinə qoşulma və 3 illik korporativ və ya Tacir kartı hədiyyə edilir.

**- Paketlərə hansı əməliyyatlar daxildir?**

- Artıq vurğuladığım kimi, paketlər onlara daxil olan əməliyyatların növü və həcmi ilə fərqlənirlər. Paketlər müştərilər tərəfindən gündəlik ən çox istifadə olunan əməliyyatları əhatə edir. Bu əməliyyatlara hesabda olan pul vəsaitlərinin nağdlaşdırılması, yerli və xarici valyuta ilə bankdan kənar köçürmələr, valyuta mübadiləsi, ekvayrinq və sairələri daxildir. İstərdim hər paketin xüsusiyyətləri barədə daha ətraflı məlumat verim. İlkin olaraq müştəriləri hesab üzrə həyata keçirdikləri əməliyyatlara əsasən beş qrupa ayırdıq və hər qrup üçün xüsusi paket hazırladıq.

Paketlərdən ən sadə olanı "Klassik"dir. Bu paket özündə standart əməliyyatları ehtiva edərək, biznesə yeni başlamış və bankla az həcmdə əməliyyatlar aparan biznes sahibləri üçün ən sərfəli seçimdir.

Növbəti "Elektron" paketi adından da göründüyü kimi, daha çox ölkədaxili və nağdsız ödənişlərə üstünlük verən müştərilər üçün hazırlanmışdır.

Üçüncü "Biznes" paketidir. Bu paket özündə ehtiva etdiyi əməliyyat növlərinə görə "Klassik" paketi ilə oxşardır, lakin əməliyyatların həcmi ilə fərqlənir. Bu paketin istifadəçiləri böyük həcmdə pulsuz nağdlaşdırma və ölkədaxili köçürmələr etmək imkanı əldə edəcəklər.

Növbəti müştəri qrupu öz fəaliyyətində xarici valyuta ilə əməliyyatlar həyata keçirən sahibkarlardır. Qeyd olunan qrup "Aktiv" adlanan paketi seçməklə həm respublika daxili, həm də respublikadan kənar ödənişləri, həmçinin valyuta mübadiləsi üzrə pulsuz əməliyyatları həyata keçirə biləcəklər.

Cari tarixə olan sonuncu "Premium" paketi bank tərəfindən təqdim olunan bütün əməliyyatlardan böyük həcmdə və sayda istifadə edən müştərilər üçün ən uyğun seçimdir. Digər 4 paketlə müqayisədə "Premium" paketinə daxil olan əməliyyatların məbləğləri və sayı dəfələrlə yüksəkdir.

**- Yeni tarif paketlərindən hansı müştərilər istifadə edə bilər?**

- Hesablaşma-kassa xidmətləri üzrə olan yeni yanaşma Kiçik və orta sahibkar olan müştərilərə tətbiq olunan individual həll yoludur və hər bir biznesin tələbatı nəzərə alınaraq qarşısında duran vəzifələrdən asılı olaraq hazırlanıb. Həm mövcud müştərilərimiz, həm də yeni müştərilər tarif paketlərinə qoşula biləcəklər. Mövcud müştərilər üçün tarif paketlərinə qoşulmaq üçün ödəniləcək xidmət haqqı fərqli olacaq. Sahibkar üçün bu alətin istifadə edilməsinin əsas üstünlüyü fokusu öz biznesinin inkişafı ilə bağlı ən önəmli olan strateji aspektlər üzərində cəmləşdirməkdən ibarətdir. Belə deyək, bu, bank biznesində yeni səhifədir və kiçik və orta sahibkar olan müştərilərimiz üçün hesablaşma-kassa xidmətlərini böyük sayda müştərilərlə işləyən, istənilən sahədə öz effektivliyini sübut etmiş tarif paketləri üzərindən qururuq. Müştəriyə təklifi elə etmək lazımdır ki, seçim onun üçün asan və anlayışlı olsun. Nəticə olaraq biz bu məqsədi əsas tutaraq Azərbaycanın bank bazarında bu xidməti ilk olaraq təqdim etməkdən çox məmnunuq.

**- Tarif paketini dəyişdirmək mümkündür?**

- Biz müştərinin tarif paketini özünün seçməsi imkanını nəzərə almışıq. Biz başa düşürük ki, bəzi müştərilərimizin işi mövsümi ola bilər və ya biznesinin spesifikası hər hansı səbəbdən dəyişə bilər. Bu məsələdə heç bir problem yoxdur, müştəri istədiyi vaxt tarif paketini dəyişə bilər.

**- Paketlərə qoşulmaq üçün ödəniş tələb olunur, yoxsa dövri ödəniş tələb olunur?**

- İlk dəfə paketi alarkən müştərinin etdiyi ödəniş – qoşulma haqqıdır. Bu prosesi cari hesabın açılması və yaxud hər hansı mobil operator tərəfindən təqdim edilən paketə qoşulma texnologiyasına bənzətmək olar. Müştəri birdəfəlik ödənişlə dərhal seçdiyi tarif paketinə qoşulur və bununla da bankın təqdim etdiyi hesablaşma-kassa xidmətlərini əldə edir. Bundan sonra müştəri yalnız paketdən istifadə üçün aylıq xidmət haqqı ödəyir. Bu ödənişlər müştərinin seçdiyi paketdən asılı olaraq dəyişir. .

**- Bir müştərinin bir neçə paketi ola bilərmi? Müştərinin qoşulduğu tarif paketi bankdakı bütün hesablarını əhatə edəcək?**

- Ayrı-ayrı fərqli paketlər əldə etməyin heç bir mənası yoxdur. Əvvəldə də qeyd etdiyim kimi, müştəri məhz özünə lazım olan paketi seçir. Müştəri istənilən tarif paketinə qoşularkən hesablaşma-kassa xidmətləri üzrə bütün əməliyyatlardan istifadə etmək imkanı əldə edir, sadəcə müxtəlif şərtlərlə - endirimli və ya müəyyən limit çərçivəsində pulsuz. Burada məsələ təkcə onda deyil ki, biz müştəriyə hesablaşma-kassa xidmətləri üzrə daha rahat servis, qənaət imkanı təqdim edirik, bu, bankın öz işini daha effektiv qurması üçün də faydalıdır. İkinci suala gəldikdə isə müştərilərimizin qoşulduğu tarif paketi PAŞA Bankdakı bütün hesablara tətbiq olunur.

**- Siz tarif paketlərini hazırlayarkən bəzi müştərilərə individual yanaşmanı nəzərdə tutmuşdunuzmu?**

Təbii ki, bizim üçün hər müştərimiz çox dəyərlidir və tarif paketləri hazırlanarkən hər bir müştərinin istəyi nəzərə alınmışdır. Paketlərə daxil olan əməliyyatlar kiçik və orta sahibkarlıqla məşğul olan müştərilərimizin istəklərini tam əhatə edir.

**- Siz tarif paketlərini yalnız kiçik və orta sahibkarlar üçün nəzərdə tutmusunuz? İri bizneslə məşğul olanlar bu məhsuldan istifadə edə bilərmi?**

- İlkin mərhələdə tarif paketləri kiçik və orta sahibkarlar üçün nəzərdə tutulub. Gələcəkdə, təbii ki, paketlərin təkmilləşdirilərək genişlənməsi və sayının artırılması da nəzərdə tutulubdur. Təcrübə nöqteyi-nəzərdən paket məhsulları kütləvi seqmentə daha meyllidir və bu seqmentə daha çox kiçik və orta sahibkarların aid olduğunu nəzərə alsaq, onlara daha keyfiyyətli xidmət göstərmək üçün ən münasib həll yoludur. Məhz buna görə tarif paketləri həm bank üçün, həm də KOS üçün daha tələb olunandır.

**- Tarif paketlərinə daxil olan əməliyyatlardan internet bank üzərindən istifadə etmək mümkündürmü?**

- Təbii ki, tarif paketlərinin yaradılması və tətbiqi bankın rəqəmsallaşdırma strategiyasının bir hissəsidir. Bizim qlobal məqsədimiz məsafədən istifadə yolu ilə müştəri-bank münasibətlərini maksimum dərəcədə sadələşdirmək və asanlaşdırmaqdır. Son vaxtlar apardığımız araşdırmalar göstərir ki, müştərilər bank seçərkən əsas meyar kimi işin internet bank, onlayn xidmət vasitəsilə qurulmasını götürürlər. Buna görə biz də həm tarif paketlərinin, həm də yeni məhsulların internet bank üzərindən olmasına böyük önəm veririk.

**- Müştərilərinizin sayı barədə nə deyə bilərsiniz? Gələcəkdə onların sayı nə qədər ola bilər?**

- Bu gün üçün deyə bilərəm ki, kiçik və orta sahibkar olan müştərilərimizin sayı 3 000-dir və ortalama aylıq 100 yeni müştəri bankla əməkdaşlığa başlayır. Biz hesablaşma-kassa xidmətləri üzrə işimizi cari paketlərlə məhdudlaşdırmayacağıq, çünki tarif paketlərinə keçid sadəcə marketinq modelinin dəyişdirilməsidir. Tarif paketləri müştərinin bankdan tələblərinin seqmentasiyasını həyata keçirməklə həm müştəriyə, həm də banka rahatlıq təmin edir. Artıq müştərilərə təqdim etmək üçün bir sıra yeni ideyalarımız da vardır, çünki elə əməliyyatlar var ki, onlar gündəlik bankçılığın hüdudlarını aşır. Bunlara kredit əməliyyatları və ya ekvayrinqlə bağlı daha fokuslanmış həll yolları aiddir. Biz müştərilər üçün paket şəklində daha maraqlı qərarlar tətbiq etmək niyyətindəyik, çünki bu gün biz buna tələbatı olan digər seqmentləri də görürük. Ona görə də, artıq indidən bir sıra ideyalarımızı inkişaf etdirir, yaxın gələcəkdə müştərilərimizə təqdim etməyi planlaşdırırıq.

**Müsahibəni aldı:**
**Yeganə Məmmədova**

# Xidmətlərin haqqı POS-terminal vasitəsilə ödənildikdə müştəriyə çek və çıxarış verilməlidir

İctimai iaşə obyektində ödəniş POS-terminal vasitəsilə nağdsız qaydada aparıldıqda həmin məbləğ nəzarət-kassa aparatına (NKA) mədaxil edilməlidirmi?



Vergilər Nazirliyinin media və kommunikasiya mərkəzindən AZƏRTAC-ın bu sualına cavab olaraq bildirilib ki, Vergi Məcəlləsinin 16-cı maddəsinin müddəalarına əsasən, nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək, o cümlədən nağdsız ödənişlərin aparılması üçün "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq POS-terminalların quraşdırılmasını təmin etmək vergiödəyicisinin vəzifələrinə aiddir.

Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın 4.3-cü bəndinə görə, ictimai iaşə obyektlərində xidmət göstərilməsi nəzarət-kassa aparatı və POS-terminallar tətbiq olunmaqla həyata keçirilir. Bu zaman xidmətlərin dəyəri nağd qaydada ödənildikdə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki, xidmətlərin dəyəri POS-terminal vasitəsilə ödənildikdə isə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki və POS-terminaldan çıxarış verilir.

# 2021-ci ildə Azərbaycanda inflyasiya 3,1 faizə düşəcək

Bu il Azərbaycanda ümumi daxili məhsul istehsalının (ÜDM) 74 milyard 646,9 milyon manat, 2019-cu ildə 75 milyard 389,2 milyon manat, 2020-ci ildə 81 milyard 245 milyon manat, 2021-ci ildə isə 84 milyard 973,1 milyon manat olacağı proqnozlaşdırılır.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da deyilir.

Sənəddə bildirilir ki, cari ildə real iqtisadi artım tempinin 2 faiz, gələn il 3,1 faiz, 2020-ci ildə 3,5 faiz, 2021-ci ildə 2,4 faiz təşkil edəcəyi nəzərdə tutulur.

Bundan başqa, proqnoza görə, ortaillik inflyasiya bu il 6,1 faiz, qarşıdakı ildə 4,7 faiz, 2020-ci ildə 3,3 faiz, 2021-ci ildə isə 3,1 faiz təşkil edəcək.

# MARKETİNQİN KOMMUNİKASİYA SİSTEMİNDƏ REKLAM




Məlumdur ki, reklam şəxslərin və tanınmış sponsorun adından ideyaların, əmtəələrin və xidmətlərin hər hansı ödənişli formasıdır, eləcə də əmtəənin keyfiyyətinin alıcılar tərəfindən qavranılmasına kömək edən kommunikasiya vasitəsidir.

Hazırda marketinq kommunikasiyasının elementi kimi reklamın uğuru iki vəziyyətlə şərtlənir:

1) məqsədə müvafiqliklə və müntəzəm xarakterlə;

2) əmtəənin planlaşdırılması, işlənib hazırlanması və istehsal prosesi, eləcə də ona olan tələbin öyrənilməsi, qiymətin əmələ gəlməsi və satışla.

Mövcud bazar şəraitində reklam informativ funksiyadan başqa əmtəələrin hərəkəti prosesinin maksimum idarə edilməsi yolu ilə istehsalın bazarla və alıcı ilə "əks əlaqəsini" təmin edərək, həm də kommunikativ funksiyanı yerinə yetirir. Marketinq sisteminin elementi kimi reklamın fərqləndirici cəhəti sadəcə tələbin formalaşması deyil, həm də istehlakçıların seçilmiş qrupunun daxilində onun idarə edilməsidir.

Məhşur reklamçı D.Oqilvi deyirdi: "Öz reklamını ən əlverişli nümunənin yaradılmasına sərf edən istehsalçı öz brendinin rəqiblərin brendindən fərqini ən qabarıq təsəvvür edərək, bazarın böyük payını qazanacaq və uzun müddət ərzində maksimum mənfəət əldə edəcək". ABŞ bazarında liderlik edən məşhur brendlərə aiddir: "Levis" geyimi, "Mayk" idman malları, "General Electric" məişət elektronikası, "Ford" avtomobil, "Koka-kola" alkoqolsuz içkilər və s.

Beləliklə, bir tərəfdən reklam məhsulun satışının qeyri-qiymət stimullaşdırılmasının daha çevik aləti olur, digər tərəfdən inteqrasiyalı reklam informasiya-kommunikasiyasına çevrilir.

Reklamın mövcud müxtəlifliyini aşağıdakı kimi təsnifləşdirmək olar:

1.**Məqsədli auditoriyaya görə:** istehlak reklamı və işgüzar reklam. İstehlak reklamı tamamilə müəyyən auditoriyaya, o cümlədən yeniyetmələrə, evdar qadınlara, ayrı-ayrı regionların sakinlərinə və s. yönəlmişdir. İstehlak reklamının böyük bir hissəsi kütləvi informasiya vasitələrindən keçir. İşgüzar reklam sənaye, ticarət, kənd təsərrüfatı, bank işi üçün nəzərdə tutulmuşdur və adətən, ixtisaslaşdırılmış nəşrlərdə, məsələn, peşəkar jurnallarda yerləşdirilir və poçtla bilavasitə təşkilata göndərilir.

2. **Funksiyalara və məqsədlərə görə:** əmtəə, korporativ və qeyri-əmtəə reklamı. Əmtəə reklamı əmtəə və xidmətin reallaşmasına kömək edir. Misal olaraq, pərakəndə ticarətin, hüquqi və maliyyə xidmətlərinin, tibbi sığortanın və s. reklamını göstərmək olar. Korporativ imic reklamı firmanın nüfuzunu və məşhurluğunu yüksəltməyə xidmət edir. Qeyri-əmtəə reklamı konkret əmtəəni yox, hər hansı bir ideyanı və məqsədi təbliğ edir. Məsələn, neft şirkəti ətraf mühiti çirkləndirmədən neft buruqlarının qazılması barəsində öz bacarığını reklam edir. Qeyri-əmtəə reklamına, həmçinin davranış modelinin dəyişməsinə (SPİD-lə, narkotiklə mübarizə), sosial problemlərin aradan qaldırılmasına, sağlam həyat tərzinin təbliğinə və s. yönəlmiş qeyri-kommersiya reklamı da aiddir.

3. **Verilmə üsuluna görə:** reklam onu alana elə vasitə ilə çatdırılır ki, nəyi görmək və ya eşitmək olar. Hazırda reklam təsirinin ən geniş yayılmış kanallarının tamamilə müəyyən dəsti formalaşmışdır.

Onların hər biri öz spesifikliyinə və auditoriyasına malikdir. Verilmə, yaxud ötürülmə vasitələrindən asılı olaraq televiziya reklamı, radio reklamı, çap reklamı (qəzetlərdə, jurnallarda), nəqliyyat reklamı (avtomobilin kuzovunda, salonun daxilində), suvenir-poliqrafiya reklamı (buketlər, bloknotlar), poçt reklamı (vərəqlər, məktublar, işgüzar mexanizmlər və s.) və kompüter reklamı (İnternetlə yayılan) fərqləndirilir.

4. **Təsəvvür üsuluna görə:** vizual reklam statik və dinamik (animasiya) reklama ayrılır. Statik reklamın kompüter hazırlığı zamanı Corel DRAW, Harvard Graphics, Adobe Photoshop və s. qrafik paketlərdən, animasiya reklamı zamanı 3D Studio MAX, Power Point və s. paketlərdən istifadə olunur.

(davamı var)

**BDU-nun dosenti**
**F.M.Qarayev**

# Azərbaycanın sığorta bazarı 40 faizdən çox artıb



2018-ci ilin yanvar-iyul ayları ərzində ölkədə fəaliyyət göstərən 21 sığorta şirkəti tərəfindən 459.9 mln. manat məbləğində sığorta haqları toplanıb, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 42,4 faiz çoxdur. Maliyyə Bazarlarına Nəzarət Palatasından Trend-ə verilən məlumata görə, ötən illin göstəricilərindən 1,3 faiz çox - 145.9 mln. manat məbləğində sığorta ödənişi həyata keçirilib.

Könüllü sığorta bazarı üzrə haqlar 334.5 mln. manat, ödənişlər isə 107.5 mln. manat təşkil edib. İcbari sığorta bazarı üzrə haqlar 125.4 mln. manat, ödənişlər isə 38.4 mln. manat olub.

# Azərbaycan-İran avtomobil zavodu istehsalı 3 dəfədən çox artırmağı planlaşdırır

2018-ci ilin sonunadək "Xəzər" Azərbaycan-İran avtomobil zavodunda 1,5 min avtomobil istehsalı planlaşdırılır.

Milli.Az bildirir ki, bu barədə Trend-ə zavodun sahiblərindən biri olan "AzərMaş" şirkətindən bildiriblər. Qeyd olunub ki, yaxın 2-3 ildə müəssisədə istehsal həcminin 3 dəfədən çox artırılması nəzərdə tutulur: "Artıq 2019-cu ildə avtomobil istehsalını ildə 3 min, 2020-2021-ci illərdə isə 5 min ədədə çatdırmaq planlaşdırılır".



Xatırladaq ki, 6 avqust 2016-cı il tarixində İranın "Iran Khodro" və Azərbaycanın "Azeurocar" şirkəti Neftçala sənaye zonasında birgə zavodun yaradılması barədə saziş imzalayıblar. Layihənin ümumi dəyəri 24 milyon manat qiymətləndirilir. Yatırımların 75 faizini Azərbaycan tərəfi, 25 faizini isə İran təmin edəcək.

Zavodun illik istehsal gücü gələcəkdə 10 min avtomobil təşkil edəcək. Avtomobillərin Ukrayna, Rusiya və Orta Asiya ölkələrinə ixracı planlaşdırılır.

# Əfqanıstan Azərbaycandan keçməklə Avropaya ilk yük daşımalarına hazırlaşır




Əfqanıstan qarşıdakı bir ay ərzində Azərbaycandan keçməklə "Lapis Lazuli" nəqliyyat marşrutu ilə Avropaya ilk yük daşımalarına başlayacaq. Türkmənistandan keçən yüklər Bakı-Tbilisi-Qars dəmir yolu ilə Avropaya daşınacaq. "Lapis Lazuli" nəqliyyat marşrutu dəmir yolu və dəniz nəqliyyatını əhatə edir.

Yüklər əsasən xalça və dərman bitkilərindən ibarət olacaq.

# Azərbaycanla İran arasında qeyri-neft sektoru üzrə ticarət dövriyyəsi 42% artıb

Dünya Turizm Təşkilatının yeni hesabatına görə, 2017-ci ildə Dubayda beynəlxalq turizmdən əldə edilən gəlir 77,5 milyard dirhəm (21,1 milyard dollar) olub. Bu, bütövlükdə Yaxın Şərqin turizmdən əldə etdiyi gəlirin təxminən üçdə bir hissəsinə (31,1 faiz) bərabərdir.

Bu gəlirlərin həcmi əvvəlki ilin göstəricisi ilə müqayisədə 8 faiz artıb.

Məruzədə qeyd edilir ki, keçən il Yaxın Şərq 58,1 milyon qonaq qəbul edib. Bu, bir əvvəlki illə müqayisədə 4,6 faiz çoxdur.



# "Bakcell"dən sərfəli 4G təklifləri

Şirkətin təqdim etdiyi bütün internet paketləri 4G şəbəkəsində istifadə oluna bilər.

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti öz abunəçilərini ən yüksək keyfiyyətli mobil rabitə xidmətləri və ən üstün rəqəmsal müştəri təcrübəsi ilə təmin etmək məqsədilə sərfəli təkliflər hazırlayır və ultra-sürətli 4G/LTE şəbəkəsinin əhatə dairəsini genişləndirir.

Müştərilərinə bütün Bakı və Abşeron ərazisi və ölkənin 30-dan çox rayon və şəhər mərkəzində mövcud olan 4G xidmətlərinin üstünlüklərindən istifadə imkanı yaratmaq üçün Bakcell sərfəli İnternet paketləri təklif edir. Bu təkliflər bütün müştəri seqmentlərinin tələb və ehtiyacını qarşılamaq üçün nəzərdə tutulub.

Məsələn, İnternetdən tez-tez istifadə edən abunəçilər xüsusi Data SİM kartlarını əldə edib 10 Gb, 30 Gb, 50 Gb həcmində və hətta limitsiz "data" Sür@ paketlərindən yararlana bilər. Müvafiq olaraq 12, 20, 30 və 50 manata təklif olunan "yalnız internet" paketləri sayəsində abunəçilər sürəti saniyədə 225 meqabitə çatan ultra-sürətli 4G xidmətindən istifadə edərək, mobil cihazlarda və "Smart" televizorlarda yüksək həlləlma əmsalı ilə 4K kontentini izləmək və yükləmək, əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video izləmək, canlı konsert və idman proqramlarına baxmaq imkanına malikdirlər.

"Bakcell"in təklif etdiyi bütün internet paketlər 4G şəbəkəsində istifadə oluna bilər. Başqa sözlə, "Bakcell"in ən müasir LTE-A şəbəkəsindən yararlanan abunəçilər maksimum sürət və rahatlıqla yanaşı, internet bağlantısının ən yüksək effektivliyini əldə edirlər. Bazarda ən innovativ mobil operator olan Bakcell bütün müştəri seqmentlərinin tələb və ehtiyaclarını öyrənmək üçün daim bazar araşdırmaları aparır və müasir smartfon istifadəçilərinin tələblərinə uyğun internet paketləri təqdim edir. Belə ki, 1,3,5, 10 və 20 Gb həcmində təqdim olunan paketlər abunəçilərə istifadə çevikliyi və rahatlığı ilə yanaşı, çox sərfəli qiymətə böyük həcmdə internet trafiki verir ki, istifadəçilər "Bakcell"in ən üstün 4G şəbəkəsindən, sözün əsl mənasında, faydalanmaq imkanına malik olurlar.



# MARAQ DÜNYASI

## Dünyanın 8-ci möcüzəsi Vyetnamda

Bu il Vyetnamda tikilən "Qızıl körpü"nü dünyanın 8-ci möcüzəsi adlandırırlar. Qeyri-adi arxitektura layihəsi ölkənin Ba Na Hills kurort şəhərciyində həyata keçirilib. Layihənin reallaşmasına 2 milyon dollar xərclənib. Körpü unikal olmaqla nəhəng daş qayaların üzərindən salınıb və ətrafdakı gözəllikləri seyr etmək üçün baxış meydançası rolunu oynayır.



Vyetnam hakimiyyəti hesab edir ki, gözəl təbiət qoynunda salınmış körpü hər il 100 minlərlə turisti ölkəyə cəlb edəcək.

## Çində dünyanın ən iri təyyarə - amfibiyası hazırlanıb



Çin konstruktorları dünyada ən böyük və nadir "AG600 Tsilun" təyyarə-amfibiya hazırlayıb. Onun texniki xüsusiyyətləri ən əlçatmaz yerlərdə öz vəzifəsini yerinə yetirməyə imkan verəcək.
Təyyarə bütün lazımi texniki sınaqdan keçirilib və seriya buraxılışına hazırdır.

Konstuktorlar bildirir ki, təyyarə-amfibiyanı dünyanın istənilən nöqtəsində su səthinin monitorinqi və yük daşımalarının həyata keçirilməsi üçün istifadə etmək olar. "AG600 Tsilun"un uçuş kütləsi 53,5 ton, maksimal uçuş sürəti saatda 500 kilometrə qədərdir. Əlavə doldurma olmadan maşın havada 12 saata qədər qala bilər. Təyyarənin qanadlarının eni 38,8 metr, uzunluğu isə 37 metrdir. Layihənin baş konstruktoru Huan Linçay deyib ki, 2021-ci ilə təyyarə-amfibiya uçuşa yararlılıq sertifikatı alacaq və bu da təyyarədən mülki aviasiyada istifadə etmək imkanı yaradacaq.




## Keçən il Dubayda beynəlxalq turizmdən 21 milyard dollardan çox gəlir əldə edilib

Dünya Turizm Təşkilatının yeni hesabatına görə, 2017-ci ildə Dubayda beynəlxalq turizmdən əldə edilən gəlir 77,5 milyard dirhəm (21,1 milyard dollar) olub. Bu, bütövlükdə Yaxın Şərqin turizmdən əldə etdiyi gəlirin təxminən üçdə bir hissəsinə (31,1 faiz) bərabərdir.
Bu gəlirlərin həcmi əvvəlki ilin göstəricisi ilə müqayisədə 8 faiz artıb.
Məruzədə qeyd edilir ki, keçən il Yaxın Şərq 58,1 milyon qonaq qəbul edib. Bu, bir il əvvəlki ilə müqayisədə 4,6 faiz çoxdur.



## Qəhvəni kimlər sevir?



Ən çox qəhvə italyanlar, yunanlar və ya ispanlar tərəfindən içilmir. Qəhvəni ən çox içənlər skandinavlardır.
Orta Avropa vətəndaşı illik olaraq beş kiloqram qəhvə istehlak edir. Aparılan reytinqlərə görə, finlandlar ən çox qəhvə istehlak edən millətdir. Finlandiyanın hər bir yetkin vətəndaşı illik 12 kiloqram qəhvə istehlak edir. İkinci yer Norveçə məxsusdur. ABŞ reytinqdə 16-cı yer tutur. Amerikalılar içində cüzi miqdarda qəhvə olan içkiləri xoşlayırlar. Maraqlısı odur ki, dünyanın ən çox qəhvə istehsalçısı Braziliya onun istehlakına görə ABŞ-dan aşağı pillədədir.
Digər tərəfdən, qəhvə sevən kimi tanınan italyanlar bir nəfərə 5,1 kiloqramla 10-cu yerdədir. Onların yanında İsveçrə, Hollandiya, Almaniya, Avstriya və Fransa da var.
Həmçinin, qəhvə içməyin müxtəlif yolları var. Bəzən biz farfor fincanda kardamonlu qəhvə seçirik, lakin tələsik olduğumuzda gözləmədən kağız fincanda aromalı maxiato içirik. Lakin, adətən, qəhvəni evdə və ya işdə, eləcə də çox vaxt kafelər, yanacaqdoldurma məntəqələrindəki mağazalarda içirik. Qəhvə seçərkən dəbə baxmırıq, içkinin keyfiyyətinə baxırıq.

## Darağın tarixi

Daraq insanların qədim kəşflərindən biridir. Bunu arxeoloji qazıntılar da sübut edir. İlk daraqlar sümük, buynuz və ağacdan hazırlanıb. Şübhəsiz, qadınların ilk kosmetik aləti də məhz daraq olub. Öz tarixi boyunca daraqlar müxtəlif funksiyalar yerinə yetirirdilər. Zaman keçdikcə daraqlar varlı insanların fəxr obyektinə çevrildi. Onları qiymətli metallardan, fil sümüyündən hazırlayıb, üzərini daş-qaşlarla bəzəyirdilər. Orta əsrlərdə daraqların üzərində mələklər, mifoloji heyvanlar təsvir olunurdu. Xüsusi daraq ustaları meydana gəlirdi. Bir usta gündə 10-15 daraq hazırlaya bilirdi.



Bu dövrdə daraqlar daha çox ağacdan hazırlanırdı.1862-ci ildə plastmasın ixtirası ilə daraqlar hamının gündəlik alətinə çevrildi.
Həm varlı, həm də kasıblar artıq daraqdan istifadə edə bilirdilər. Avropada tapılan ilk daraqlar daş dövrünə aid edilir.

Professor Elşən Hacızadə Ədalət Şamoyevə atası
**ƏDALƏT ŞAMOYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə "Vətən səsi" qəzetinin baş redaktoru Elşən Əliyevə atası
**ƏLİ KİŞİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500